**2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 6 yanvar 2025-ci il tarixli 03 saylı müraciət üzrə**

# R Ə Y İ

2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində 56 saylı Şabran-Xaçmaz seçki dairəsindən Rəhimli bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sətdərov Musa Daşdəmir oğlu 6 yanvar 2025-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) müraciət edərək namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 46/113 saylı qərarını mübahisələndirmiş, həmin qərarın ləğv edilməsini və namizədliyinin qeydə alınması barədə qərar qəbul edilməsini xahiş etmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsinin) 112-ci, 112-1-ci maddələrinin tələblərinə uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü kimi tərəfimdən araşdırılmışdır.

Araşdırma ilə bağlı şikayətçi ilə əlaqə saxlanılmış, araşdırma və iclasda iştirak etmək, həmçinin digər hüquqlarının olması izah edilmiş, lakin o, araşdırmada və Komissiyanın iclasında iştirak etməkdən imtina etmişdir.

M.D.Sətdərov müraciətində göstərmişdir ki, 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Rəhimli bələdiyyəsi üzrə namizədliyini irəli sürmüş, namizədliyinin qeydə alınması üçün imza vərəqələrini və digər seçki sənədlərini dairə seçki komissiyasına təqdim etmiş, həmin sənədlərin araşdırılmasında və komissiyanın iclasinda iştirak etmək barəsində dairə seçki komissiyasına etdiyi müraciət təmin edilməmiş, 4 yanvar 2025-ci il tarixli 46/113 saylı qərarla namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası M.D.Sətdərovun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 4 yanvar 2025-ci il tarixli 46/113 saylı qərarını onunla əsaslandırmışdır ki, namizədin təqdim etdiyi əmlak barədə məlumatda ümumi birgə mülkiyyət hüququ əsasında ona məxsus olan torpaq sahəsi göstərilməmişdir.

Araşdırma prosesində namizəd M.D.Sətdərov tərəfindən təqdim edilmiş seçki sənədləri dairə seçki komissiyasından tələb edilərək götürülmüş, təkrar olaraq yoxlanılması üçün Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupuna təqdim edilmişdir.

Araşdırmanın nəticəsi olaraq işçi qrupunun üzvləri tərəfindən verilmiş 7 yanvar 2025-ci il tarixli rəy və rəyə əlavə edilmiş mülkiyyət hüququna dair əldə olunmuş təsdiqedici sənədlərlə namizəd M.D.Sətdərovun Şabran

rayonu Uzunboyad kəndində 2,41 ha torpaq sahəsinin onun ümumi mülkiyyətində olan 3/24 hissəsinin daşınmaz əmlakın Dövlət reyestrində faktiki olaraq qeydə alındığına baxmayaraq o, bunu dairə seçki komissiyasına təqdim etdiyi əmlak barəsində məlumatda göstərməmişdir.

Seçki Məcəlləsinin 58.3-ci maddəsinə görə, xüsusi mülkiyyət hüququ əsasında (o cümlədən, ümumi mülkiyyət hüququ əsasında) namizədə məxsus olan əmlak barədə məlumatlar Seçki Məcəlləsinin 5 saylı Əlavəsinə uyğun formada təqdim edilir.

Seçki Məcəlləsinin 60.2.3-cü maddəsinə əsasən namizədlərin, siyasi partiyanın, siyasi partiyalar bloklarının Seçki Məcəlləsinin 57-ci və 58-ci maddələrinə uyğun təqdim etdikləri məlumatların düzgün olmaması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Seçki Məcəlləsinin 216.1-ci maddəsinə görə bələdiyyə üzvlüyünə namizədlər Seçki Məcəlləsinin 60-cı maddəsində göstərilən qaydada qeydə alınırlar.

56 saylı Şabran-Xaçmaz seçki dairəsi dairə seçki komissiyası tərəfindən araşdırmaya təqdim edilmiş 7 yanvar 2025-ci il tarixli arayışdan müəyyən edilir ki, namizəd M.D.Sətdərova iclasda iştirak etməsi barədə məlumat verilmiş, lakin o yaxın qohumunun yas mərasimində iştirak etməsi səbəbindən iclasda iştirak etməkdən imtina etmişdir.

Göstərilənlərə əsasən müəyyən edilir ki, M.D.Sətdərovun Rəhimli bələdiyyəsinə namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə dairə seçki komissiyasının qərarı əsaslı olmuşdur. Ona görə də şikayətin təmin edilməsi üçün hüquqi əsaslar mövcud deyildir.

Beləliklə, müraciət əsassız olduğundan təmin edilməməli, M.D.Sətdərovun Rəhimli bələdiyyəsinə namizəd kimi qeydə alınmasından imtinaya dair 56 saylı Şabran-Xaçmaz seçki dairəsi dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 46/113 saylı qərarı dəyişdirilmədən saxlanılmalıdır.

Yuxarıda qeyd olunanlara əsasən Seçki Məcəlləsinin 58-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci və 216.1-ci maddələrinə əsasən **r ə y ə  g ə l d i m :**

1. 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində Rəhimli bələdiyyəsinə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Sətdərov Musa Daşdəmir oğlunun 6 yanvar 2025-ci il tarixli 03 saylı müraciəti əsassız olduğundan təmin edilməsin, 56 saylı Şabran-Xaçmaz seçki dairəsi dairə seçki komissiyasının 4 yanvar 2025-ci il tarixli 46/113 saylı qərarı dəyişdirilmədən saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

**Ekspert qrupunun üzvü** **Qabil Orucov**